

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 32 (23.674)

17 fevral 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkovun etimadnaməsini qəbul edib.

Səfiri salamlayan Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz arasında dostluq münasibətləri uzun illər boyu böyük potensiala, yaxşı dinamikaya malik olmuşdur. Ali səviyyədə tez-tez əlaqə saxlamağımız, qarşılıqlı səfərlər, əlbəttə, münasibətlərimizin inkişafına böyük təkan verir və biz əməkdaşlığın yaxşı nümunələrini görürük. Dövlətimizin başçısı Azərbaycan-Belarus arasında ticarət, sənaye kooperasiyası sahəsində əməkdaşlığın, uzun illər boyu uğurla həyata keçirilən hərbi-texniki əməkdaşlığın əhəmiyyətindən bəhs edərək əminliyini bildirib ki, yeni təyin olunmuş səfir Azərbaycanda olduğu müddətdə qarşılıqlı fəaliyyətin potensialını daha da artırmaq üçün bu məsələlərlə fəal məşğul olacaq.

Səfir Andrey Ravkov Prezident İlham Əliyevə minnətdarlığını bildirərək qeyd edib ki, dövlət rəhbərləri arasında dostluq və yüksək səviyyədə əlaqələr bu inkişafın, qarşılıqlı münasibətlərin möhkəmlənməsinin rəhnidir. Belarus da bunda maraqlıdır.

* * *

Prezident İlham Əliyev həmin gün İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidin etimadnaməsini qəbul edib.

## Qarşıdakı dövr yeni iqtisadi yüksəliş mərhələsi olacaq

***Ölkəmizin müasir sosial-iqtisadi inkişafı və tarixi zəfərlərlə dolu 2020-ci ilin yekunları qarşıdakı dövrün də hər sahədə daha uğurlu olacağından xəbər verir. Ötən ilin 10 noyabrında, 44 günlük tarixi Vətən müharibəsi sonunda təcavüzkar Ermənistan dövlətinin təslim olmasından sonra qədim Azərbaycan torpağı Qarabağda artıq başlanmış olan genişmiqyaslı quruculuq işləri təkcə ölkəmizin deyil, bütün regionun rifahı üçün yeni bir mərhələnin də əsasını qoyacaqdır. Bu mərhələdə doğma Naxçıvanımız da özünün iqtisadi potensialı və geniş quruculuq təcrübəsi ilə daha da diqqətləri cəlb edəcək. Xüsusilə 2020-ci ilin yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə ölkə başçısı, Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirən əsas kommunikasiyaların açılması gələcəkdə çox əhəmiyyətli olacaqdır.***



Önümüzdəki yeni dövr üçün ölkəmizdə və eləcə də Naxçıvan Muxtar Respublikasının iqtisadi-mədəni həyatında işgüzar fəallığın daha da artmasına zəmin yaradan faktorlardan biri, bütövlükdə, dünya iqtisadiyyatı üçün böhranlı pandemiya vəziyyətinin zəifləməsi və müasir texnologiyaların tətbiqində yeni mərhələyə keçidin yaranması ilə bağlıdır. Xüsusən məsafədən həyata keçirilən idarəetmə modellərinin çox sürətlə həyatımıza daxil olması nəticəsində artıq iqtisadiyyatda operativlik və rasionallıq kimi qavramlar yeni məna kəsb edib. Sürət, komfort, təhlükəsizlik və erqonomika kimi ümumi keyfiyyət standartlarının yüksəldiyi bir dövrdə cəmiyyətin bütün üzvlərinin bu tələbatlarını ödəmək üçün iqtisadi həyatda daha geniş perspektivlər və əlverişli bazar imkanları qarşıdakı dövrdə bizi gözləməkdədir.

Səbəb, nəticə əlaqələri prinsipindən yanaşsaq, bu fikirləri muxtar respublikamızda ötən illərin, xüsusən 2020-ci ilin nəticələrinə əsasən daha real səsləndirmək mümkündür. Belə ki, 2020-ci ildə pandemiyanın yaratdığı mənfi təsirlərə baxmayaraq, muxtar respublikada əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsulun həcmi 1,1 faiz artaraq 2 milyard 908 milyon manata yaxın olmuşdur. Onun bir nəfərə düşən həcmi 6 min 310 manat təşkil etmişdir ki, bu da 2019-cu ildəki göstəricidən 1,8 faiz çoxdur. 2020-ci ildə muxtar respublikada istehsal edilən sənaye məhsulunun həcmi artaraq 1 milyard 40 milyon 475 min manat, kənd təsərrüfatı məhsullarının həcmi isə 537 milyon manatdan artıq olmuşdur. Bu gün muxtar respublikada 384 növdə məhsul istehsal edilir, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir. Bəli, zaman göstərdi ki, ən çətin vəziyyətlərdə belə, iqtisadi artımın müsbət dinamikasını təmin edən sabitliyin bərqərar edilməsi, bank sektorunun etibarlı fəaliyyət göstərməsi, iqtisadiyyatın aparıcı sahələri arasında bir-birini tamamlayan şəkildə inteqrativ əlaqələrin yaradılması və ən əsası gələcəyə ümidlərin heç zaman itməməsi həmişə belə yüksəlişin təməlində dayanan faktorlardandır.

Qarşıdakı dövrdə Naxçıvan iqtisadiyyatının dayanıqlı inkişafını şərtləndirən amillərdən biri burada yerli xammala əsaslanan, daxili bazarda və eləcə də ixrac bazarlarında geniş istehlak tələbatına malik olan yüksəkkeyfiyyətli məhsulların istehsalıdır. Məhz belə istehsal imkanları hesabına bu gün muxtar respublikada ərzaq təhlükəsizliyi tam təmin olunmuş və dünya standartlarına uyğun məhsullar xaricə ixrac edilməkdədir. "İxrac ili" elan olunmuş ötən 2020-ci ildə qazanılmış təcrübə, eləcə də cari ildə bu istiqamətdə işlərin davam etdirilməsi Naxçıvan iqtisadiyyatının daha da inkişafına təkan verən amillərdəndir. Ölkəmizin əsas hissəsi ilə yeni kommunikasiya əlaqəsinin yaradılması isə Naxçıvan məhsullarının daha sərfəli və sürətli şəkildə ixracı üçün geniş imkanlar yaradacaq. Diyarımızdan kənarda da ənənəvi olaraq elit alıcı rəğbəti qazanmış yüksəkkeyfiyyətli orqanik Naxçıvan məhsulları – mineral sular, meyvə-tərəvəz, ət-süd məhsulları, unlu-qənnadı və çörək məmulatları, bal, mürəbbə və meyvə şirələri özünə daha çox alıcı tapacaq. Ayrıca olaraq muxtar respublikada yüksək standartlara uyğun şəkildə istehsal edilmiş və regiona səyahət edən turistlər tərəfindən rəğbətlə istehlak olunan Naxçıvan piyəsi, digər şərab və spirtli içki məmulatları da maneəsiz şəkildə ölkəmizin regionlarına ixrac olunacaqdır. Naxçıvanın çox zəngin xammal ehtiyatı olan və yüksək dünya standartları səviyyəsində emal olunaraq bugünkü quruculuq işlərində geniş tətbiq edilən travertin, mərmər və digər tikinti materiallarının kənar yerlərə daha çox ixracı da qarşıdakı dövrdə sahibkarlara yeni fürsətlər yaradacaqdır.

Muxtar respublika ötən dövrdə istehsal, bazar və sosial infrastruktur qurulması sahəsində mühüm mərhələ qət etmiş, hazırda yüksək texnologiyaların tətbiqi və innovativ məhsulların dünyaya ixracı istiqamətində yeni hədəflər müəyyənləşdirməkdədir. Yüksək inkişaf etmiş qardaş Türkiyə Respublikasına birbaşa çıxış imkanları, yetişən intellektual gənclik, Şərur Sənaye Parkının yaradılması və Naxçıvan Dövlət Universitetində Texnopark yaradılması istiqamətindəki görülən real işlər gələcəkdə Naxçıvanı Cənubi Qafqazın "Silikon vadisi"nə çevirmək kimi perspektivləri indidən masa üzərinə qoyur. Muxtar respublikada təhsil infrastrukturunun tamamilə yenilənməsi və kompüter-internet texnologiyalarının tətbiqində həyata keçirilmiş genişmiqyaslı tədbirlər də bu hədəflərə çatmaqda mühüm dəstək olacaqdır.

Davamlı enerji təminatı iqtisadiyyatın inkişafında və sosial həyatda ən vacib şərtlərdəndir. Məhz bu sahədə həyata keçirilmiş tədbirlər sayəsində muxtar respublikada etibarlı enerji təminatı sistemi qurulmuş, müasir dövrün çağırışlarına uyğun olaraq alternativ və bərpa olunan enerji mənbələrindən istifadə əsas prioritet kimi qarşıya qoyulmuşdur. Bu gün Cənubi Qafqazda ən böyük belə güc infrastrukturunun məhz Naxçıvanda qurulması muxtar respublikanın etibarlı tərəfdaş imicinin və investisiya cazibədarlığının da mühüm bir göstəricisidir.

Son illər ətraf mühitin mühafizəsi sahəsində görülən işlər muxtar respublika ərazisində əlverişli ekoloji şəraitin qorunub saxlanılmasına zəmin yaratmışdır. Bu da, öz növbəsində, əhalinin sağlamlığının qorunması və sağlamlıq turizmi sahəsində regionumuzun çəkisinin daha da artmasına mühüm dəstək olacaqdır. 2020-ci ili Zəfərlə başa vurmuş ölkəmizin yeni ildə də uğurlarını davam etdirməsi üçün isə turizm, ölkə başçısının da qeyd etdiyi kimi, ən vacib sahələrdən olacaqdır. Ölkəmizin mədəniyyət paytaxtı elan olunmuş Şuşa şəhərinə gələcək dövlət, hökumət başçıları, mədəniyyət xadimləri və bütün xoşməramlı insanlar yaxın keçmişdə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı kimi şərəfli missiyasını bir daha xatırlayacaq, xalqımızın yüksək tolerantlığını, blokada şəraitinə və hər cür təcavüzkara, təhlükələrə baxmayaraq, qurub-yaratmaq əzmindən vaz keçmədiyini və Azərbaycanın Cənubi Qafqazın əsl inkişaf yolunu seçmiş ölkəsi olduğunu bir daha görəcəklər. Azərbaycanın ssenarisi əsasında gələcəkdə də həyata keçirilən iri regional layihələrdə mühüm tranzit mövqe tutacaq Naxçıvandan birbaşa olaraq turist avtobusları ilə Naxçıvan-Zəngilan-Şuşa və əks-istiqamətdə Füzuli-Naxçıvan-Əshabi-Kəhf turizm marşrutları ilə rahat səyahətlər də bütün azərbaycanlıların ən böyük arzusu kimi real olacaq. Bunun gerçəkləşməsi isə bu regionda hər kəsin zərurət duyduğu, ölkə başçımızın hərbi və siyasi qətiyyəti nəticəsində nail olduğumuz davamlı sülhə xidmət edəcək.

✍ **Əli CABBAROV**

## Pedaqoji təcrübəyə start verilib



***Naxçıvan Müəllimlər İnstitutunda Riyaziyyat və informatika müəllimliyi, İbtidai sinif müəllimliyi və Məktəbəqədər təlim və tərbiyə ixtisaslarının sonuncu kurs tələbələrinin pedaqoji təcrübəsinin başlanğıc konfransı keçirilib.***

İnstitutun rektoru Azad Novruzov konfransı açaraq qeyd edib ki, ixtisaslar üzrə tədris planına uyğun olaraq İbtidai sinif müəllimliyi, Məktəbəqədər təlim və tərbiyə ixtisaslarında təhsil alan tələbələr IV tədris ilinin VIII semestrində, Riyaziyyat və informatika müəllimliyi ixtisasında təhsil alan tələbələr V tədris ilinin X semestrində 14 həftəlik pedaqoji təcrübə keçəcəklər. Bu ixtisaslar üzrə 204 tələbə Naxçıvan şəhər məktəbləri və məktəbəqədər təhsil müəssisələrində olacaqlar.

Rektor vurğulayıb ki, tələbələrin müəllimlik fəaliyyətinə hazırlanmasında pedaqoji təcrübə mühüm əhəmiyyət kəsb edir. Onlarda ixtisaslar üzrə qazanılan nəzəri bilikləri tətbiq etmək bacarığının və müəllimə xas olan keyfiyyətlərin formalaşdırılması pedaqoji təcrübə vasitəsilə həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxışında vurğulayıb ki, muxtar respublikada təhsilin bütün sahələri dövlət qayğısı ilə əhatə olunub, müasir tələblərə cavab verən təhsil infrastrukturunun yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, yeni STEAM təlim metodunun tətbiqi üçün kabinələr yaradılıb, lazımi avadanlıqlarla təchiz olunub. Muxtar respublikada pedaqoji kadrların təkmilləşməsi istiqamətində atılan addımlar, keçirilən təlim və təcrübələr bu sahədə əhəmiyyətli uğurların qazanılmasına şərait yaradıb.

Qeyd edilib ki, pedaqoji təcrübə tələbə-gənclərin müəllim kimi formalaşmasında əhəmiyyətli rol oynayır. Təhsil prosesinin səmərəliliyi pedaqoji kadrların elmi səviyyəsindən, pedaqoji ustalığından, pedaqoji etikaya bələdliyindən, ən əsası isə pedaqoji sahədə qazandığı praktik hazırlığından asılıdır.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən bu günədək keçirilən müsabiqələrdə Naxçıvan Müəllimlər İnstitutunun 65-i müəllim, 40-ı isə müxtəlif vəzifələr olmaqla, ümumilikdə, 105 məzunu işlə təmin olunub.

Digər çıxışlardan sonra pedaqoji təcrübə ilə bağlı sərgiyə baxış olub və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən ali təhsil ocağına dərslik və metodik vəsaitlər təqdim edilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikasının əlverişli iqlim şəraiti və tarixən formalaşan təsərrüfatçılıq ənənələri bu qədim diyarda aqrar sektorun inkişafı üçün mühüm zəmin yaratmışdır. Kənd təsərrüfatı sahəsində sahibkarlara göstərilən dövlət dəstəyinin həcminin ilbail artması və müxtəlif istiqamətlər üzrə qəbul olunan Dövlət proqramlarının uğurlu icrası böyük nailiyyətlərin qazanılmasına səbəb olmuşdur. Bu istiqamətlərdən biri – meyvəçiliyin və tərəvəzçiliyin inkişafı isə əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunması sahəsində xüsusi rol oynayır. Onu da qeyd etmək lazımdır ki, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üçün həyata keçirilən tədbirlərin aqrar sektorda məşğulluğun təmin olunmasına müsbət təsir göstərməsi bu sahənin xüsusi əhəmiyyətə malik olmasını təsdiq edən amildir.***

*Dövlət proqramı icra olunub*

## Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı diqqətdə saxlanılmışdır





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahədə 2012-2015-ci illəri əhatə edən Dövlət proqramının icrası nəticəsində əldə edilən uğurların davam etdirilməsi üçün yeni imkanlar yaratmışdır. Proqramın icrasına uyğun olaraq 2018-ci il noyabr ayının 1-də Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin, eləcə də Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin yeni inzibati binası istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən tədbirdə Ali Məclisin Sədri aqrar sahənin vacibliyinə diqqəti cəlb edərək demişdir: ***"Hər bir ölkədə aqrar sahə inkişaf etmədən ümumi inkişafı təmin etmək mümkün deyil. Bu səbəbdən də ümummilli liderimiz Heydər Əliyev istər Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində kənd təsərrüfatının inkişafını daim diqqətdə saxlamış, bu sahədə kompleks tədbirlər görülmüşdür. Azərbaycan aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrilmişdir. Bu gün də ölkəmizdə kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir, torpaq mülkiyyətçilərinə subsidiyalar verilir, aqrolizinq xidmətləri göstərilir, güzəştlər tətbiq olunur, mütərəqqi suvarma sistemləri qurulur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası da sənaye-aqrar respublikasına çevrilmişdir. Muxtar respublikada torpaqlar əkilir, bol məhsul istehsal olunur. İstehsal olunan kənd təsərrüfatı məhsulları isə sənaye müəssisələri üçün xammal bazası yaradır. Bütün bunlar bir daha kənd təsərrüfatının nə qədər vacib sahə olduğunu təsdiq edir..."***





Dövlət proqramında Kəngərli rayonu ərazisində 100 hektar sahədə püstə bağının salınması ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Tapşırığın icrasını təmin etmək məqsədilə 2016-2017-ci illərdə həyata keçirilən tədbirlər çərçivəsində 29 min 250 püstə fidanından istifadə olunmuşdur. 100 hektar ərazini əhatə edən püstə bağının ətrafında əlavə olaraq 4 hektar sahədə qoruyucu yaşıllıq zolağı əkilmişdir. Ümumilikdə, proqramın icrası müddətində 13 tingçilik təsərrüfatı, 28,1 hektar sahədə meyvə toxmacarlığı yaradılmış, 1128,5 hektar sahədə meyvə və üzüm bağı salınmış, 554 hektar sahədə tinglə bərpa, 483,5 hektar sahədə toxumla əkin aparılmışdır. Bağların salınması üçün 870 min 352, bərpa tədbirləri məqsədilə 138 min 500 meyvə tingindən istifadə olunmuşdur.

Muxtar respublikamızda aqrar sektoru stimullaşdıran ən mühüm faktorlardan biri bu sahəyə göstərilən dövlət maliyyə dəstəyidir. Proqramın icrasına uyğun olaraq bu istiqamətdə həyata keçirilən tədbirlər ixracyönümlü məhsul istehsal edən sahibkarların sayının artmasına səbəb olur. 2016-2020-ci illərdə meyvə və tərəvəzçilik təsərrüfatlarının, həmçinin emal müəssisələrinin yaradılması istiqamətində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 44 layihəyə, ümumilikdə, 675 min 400 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Dövlət proqramının icrası nəticəsində əldə edilən mühüm uğurlardan biri də meyvəqurutma, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi və yabanı növ bitkilərin tədarükü istiqamətləri üzrə 4 istehsal sahəsinin yaradılmasının başa çatdırılması olmuşdur.

Soyuducu anbarların yaradılması məqsədilə görülən işlər kənd təsərrüfatına göstərilən dövlət dəstəyinin digər mühüm təzahürüdür. Bu sahəyə özəl investisiya qoyuluşunun da artması qazanılan uğurların çoxalmasına səbəb olur. Həyata keçirilən tədbirlərin mütərəqqi əhəmiyyəti ondan ibarətdir ki, proqramın icrasına uyğun olaraq soyuducu anbarların yaradılması muxtar respublika əhalisinin ilin hər fəslində keyfiyyətli yerli məhsullarla təmin edilməsinə imkan verməkdədir. 2016-2020-ci illərdə dövlət maliyyə dəstəyi hesabına Şərur rayonunda 5 soyuducu anbarın yaradılması, 1 soyuducu anbarın genişləndirilməsi, 1 soyuducu anbarda qurğuların quraşdırılması, həmçinin özəl investisiya qoyuluşu hesabına Babək rayonunda 1, Şərur rayonunda 9 soyuducu anbarın yaradılması, 1 soyuducu anbarın genişləndirilməsi başa çatdırılmışdır. Dövlət maliyyə dəstəyi hesabına Şərur rayonunda ümumi tutumu 250 ton, Naxçıvan şəhərində "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ümumi tutumu 800 ton olan soyuducu anbarların yaradılması davam etdirilmişdir. Ümumilikdə, bu dövrdə dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına ümumi tutumu 7 min 550 ton olan 15 soyuducu anbarın yaradılması, 2 soyuducu anbarın tutumunun 240 ton genişləndirilməsi, 1 soyuducu anbarda qurğuların quraşdırılması başa çatdırılmış, 2 soyuducu anbarın yaradılması davam etdirilmişdir. Hazırda muxtar respublikamızda tutumu 19 min 390 ton olan 42 soyuducu anbarın fəaliyyət göstərməsi meyvə-tərəvəz məhsullarının qış aylarında istehlakçıya çatdırılması ilə yanaşı, ixrac həcminin də artırılmasına şərait yaradır.

Dövlət maliyyə yardımına innovasiya dəstəyinin də əlavə olunması meyvə-tərəvəzçilik sahəsində müasir dövrün tələblərinə uyğun yeni təsərrüfatların yaranması ilə nəticələnir. Bunlardan ən çox diqqət cəlb edəni isə istixana təsərrüfatlarıdır. Məhsuldar fəaliyyət və bol gəlir yeni istixana təsərrüfatlarının yaradılmasını şərtləndirən mühüm amillərdəndir. Dövlət proqramının icrası müddətində ümumi sahəsi 31 min 369 kvadratmetr olan 15 istixana təsərrüfatının yaradılması başa çatdırılmışdır. Hazırda muxtar respublikada 139 min 555 kvadratmetr sahədə 31 müasir istixana kompleksi fəaliyyət göstərir.

Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı sahəsində həyata keçirilən tədbirlər sırasında meliorasiya və irriqasiya işləri mühüm əhəmiyyət daşıyır. Torpaqların su təminatının yaxşılaşdırılması əkin sahələrinin və məhsuldarlığın artması ilə nəticələnir. Bu tədbirlər proqramın icra müddəti ərzində diqqətdə saxlanılmış, əkin sahələrinin suvarılması məqsədilə 140,46 kilometr yeni suvarma boru xətti çəkilmiş, 1005,54 kilometr kanal, 1782,81 kilometr ara arxlarda təmizləmə, 159,13 kilometr boru xəttində təmir-bərpa işləri aparılmışdır. Həmçinin şoranlaşmış sahələrin əkin dövriyyəsinə daxil edilməsi üçün bu dövrdə 191,16 kilometr kollektor, 27,88 kilometr açıq, 2,43 kilometr qapalı drenaj lildən təmizlənmiş, eləcə də 35,28 kilometr açıq, 4,54 kilometr qapalı drenaj tikilmişdir.

Aqrar sahədə sahibkarlıq riskinin və maddi rifahın zəmanətçisi sığorta tədbirləridir. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tapşırığın icrasına uyğun olaraq 15 sığorta müqaviləsinin bağlanması meyvə-tərəvəz əkini sahələrinə gözlənilməz hadisələr nəticəsində zərər dəyməsi ehtimalına qarşı əmlak mənafelərinin qorunmasını təmin etmək məqsədi daşıyır.

Əkin sahələrinin mühafizə edilməsinin digər forması isə zərərvericilərə qarşı mübarizə tədbirlərinin aparılmasıdır. Pestisidlərdən istifadə olunmaqla ziyanvericilərin zərərsizləşdirilməsi məhsuldarlığa da təsir göstərən mühüm amillərdəndir. Proqramın icrası müddətində muxtar respublikaya alınıb gətirilən pestisidlərdən istifadə olunmaqla 6 min 459,8 hektar sahədə ziyanvericilərə və alaq otlarına qarşı kimyəvi mübarizə tədbirləri həyata keçirilmişdir. Görülən işlər ərzaq bolluğunun təmin olunmasında xüsusi rol oynamışdır.

Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi üzrə həyata keçirilən tədbirlər sırasında istehsal həcminin artırılması, yeni təsərrüfatların yaradılması, soyuducu anbarların mövcudluğu qədər həmin məhsulların keyfiyyətinə nəzarət olunması da vacib məsələlərdəndir. İnsan sağlamlığının qorunmasının mühüm şərti istehsal olunan məhsulların laboratoriya analizlərinin vaxtında aparılması və sertifikatlaşdırılmış məhsulların sayının çoxalmasıdır. Dövlət proqramında müəyyən edilmiş tədbirlər çərçivəsində 2016-2020-ci illərdə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 909 halda meyvə-tərəvəz məhsullarından orta nümunələr götürülərək laboratoriya analizlərinə cəlb edilmişdir. Bu dövrdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılan monitorinqlər zamanı meyvə-tərəvəz və onlardan hazırlanan məhsulların 1216 halda keyfiyyət və ya təhlükəsizlik göstəriciləri yoxlanılmış, nəticələrin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olduğu müəyyən edilmiş, müvafiq məhsullar 465 halda sertifikatlaşdırılmışdır. Bundan əlavə, proqramın icrası müddətində günəbaxan, noxud, qarpız, qovun, balqabaq, pomidor, xaşa, çuğundur, xiyar, arpa, buğda, yonca, qarğıdalı toxumlarından və azot gübrəsindən, ümumilikdə, 44 halda nümunələr seçilərək analizləri aparılmışdır.

Dövlət proqramının icrasına uyğun olaraq daxili bazarın qorunması məqsədilə görülən işlər yerli istehsal məhsullarının gəlirgətirmə imkanlarının artması ilə nəticələnmişdir. Muxtar respublikada istehsal olunan meyvə-tərəvəz məhsullarının kütləvi istehsal dövründə qonşu ölkələrdən idxalının qarşısının alınması sahibkarlara göstərilən diqqətin vacib göstəricisidir. Eyni zamanda proqramın icrası müddətində sağlam rəqabət mühitinin yaradılması və istehsalçıların öz məhsullarını birbaşa istehlakçılara çatdırması məqsədilə Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında hər həftənin şənbə və bazar günləri yarmarkalar təşkil edilmiş, bu yarmarkalarda yerli istehsal müəssisələrinin iştirakı təmin olunmuşdur.

Naxçıvanda meyvəçilik və tərəvəzçilik sahəsində həyata keçirilən elmi fəaliyyət, aparılan tədqiqat işləri bu sahənin daha da inkişaf etdirilməsinə təkan verməkdədir. Görülən işlər yeni məhsul sortlarının aşkar edilməsinə və bu sahədə elmi-metodik vəsaitlərin sayının artmasına səbəb olur. 2016-2020-ci illərdə meyvəçilik və tərəvəzçilik sahəsi üzrə Naxçıvan Dövlət Universitetində 9 məqalə hazırlanmış, 2 kitab nəşr olunmuş, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində 79 elmi məqalə, 53 konfrans materialı, 17 qəzet məqaləsi, 7 monoqrafiya, 3 buklet, 3 kitab çap edilmişdir. Bölmənin əməkdaşları tərəfindən Şərur, Babək və Culfa rayonlarının hər birində 2 yeni heyva sortu aşkar olunmuş, ilk dəfə aşkar edilən aborigen üzüm sortuna "Naxçıvan" adı verilmişdir. Elmlər doktorluğu üzrə bölmənin 2 əməkdaşının meyvəçilik sahəsində tədqiqatları davam etdirilmiş, 1 əməkdaşın tədqiqat işi isə tamamlanmışdır. Bu dövrdə Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin elmi işçiləri tərəfindən "Naxçıvan Muxtar Respublikasının boz torpaqları şəraitində tərəvəz noxudunun səpin müddətləri", "Naxçıvan Muxtar Respublikası şəraitində müxtəlif səpin sxemlərinin tərəvəz noxudunun məhsuldarlığına təsiri", "Naxçıvan Muxtar Respublikasında üzümün genetik fondunun öyrənilməsi" mövzularında elmi işlər yekunlaşdırılmışdır.

Torpaqdan səmərəli istifadə məhsul bolluğunun mühüm şərtidir. Proqramın icrasına uyğun olaraq Şərur rayonunun Axaməd, Çomaxtur, Çərçiboğan, Qarahəsənli, Dəmirçi, Maxta, Qarxun, Şəhriyar, Vərməziyar, Tumaslı, Vayxır, İbadulla, Ərəbyengicə, Xanlıqlar, Ələkli, Çəmənli, Xələc, Dərvişlər, Kosacan, Siyaqut, Arbatan, Dizə, Kürkəndi, Kürçülü, Sərxanlı, Qışlaqabbas, Püsyan, Qorçulu, Axura, Havuş, Həmzəli, Gümüşlü, Culfa rayonunun Əlincə, Xoşkeşin, Bənəniyar, Xanəgah, Saltaq, Əbrəqunus, Göydərə, Kırna, Milax, Ərəfsə, Yaycı, Dizə, Şurud, Babək rayonunun Payız, Didivar, Nəzərabad, Vayxır, Yarımca, Kalbaoruc Dizə, Məmmədrza Dizə, Qaraqala, Şıxmahmud, Yuxarı Uzunoba, Kərimbəyli, Qahab, Sirab, Zeynəddin, Kültəpə, Cəhri, Ordubad rayonunun Dəstə, Biləv, Vənənd, Azakənd, Düylün, Çənnəb, Üstüpü, Aza, Aşağı Əylis və Yuxarı Əylis, Kəngərli rayonunun Şahtaxtı, Qarabağlar, Böyükdüz, Xıncab, Yurdçu, Xok, Qabıllı, Qıvraq, Çalxanqala, Yeni Kərki, Şahbuz rayonunun Daylaqlı, Kiçikoba, Ayrınc, Badamlı, Kolanı, Nursu, Biçənək, Keçili, Şahbuzkənd, Mahmudoba, Aşağı Qışlaq və Yuxarı Qışlaq bələdiyyələri üzrə işçi planlar hazırlanaraq torpaq analizlərinin aparılması üçün təhvil verilmişdir.

Meyvə-tərəvəz əkinlərinin əkin atlaslarına uyğun aparılmasının əhəmiyyəti barədə ailə təsərrüfatçıları və sahibkarlarla Naxçıvan şəhərində 5, Şərur rayonunda 10, Babək rayonunda 5, Culfa rayonunda 6, Ordubad rayonunda 3, Şahbuz rayonunda 4, Kəngərli rayonunda 7, Sədərək rayonunda 3, "Araz" Elm-İstehsalat Birliyində 4 tarla-seminar müşavirəsi keçirilərək müvafiq tövsiyələr verilmişdir. Proqramın icrası müddətində kənd təsərrüfatı məhsullarının tədarükü, satışı və emalı üzrə 3 ictimai birlik yaradılmışdır.

*Dövlət proqramının icrası muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı tədbirlərin davamlı xarakter almasına səbəb olmuşdur.*

**"Şərq qapısı"**

*Jurnalist araşdırması*

# Bir məhəlləyə sığınan tarixi həqiqətlər

***İki küçənin ayrıcında dayanmışam. Qış ayı olsa da, səmada artıq qüruba doğru əyilməkdə olan günəşin şüaları küçəni bir qədər isidib. Elə bil Günəş də dar döngələrin tarixinə işıq tutaraq o tarixi diqqətlə izləməyə çağırır. Elə bu işığın fonunda, önündə dayandığım məhəllənin dünəni aydın görünür. Divarlarda günəş şüaları əks olunduqca onların arxasında yatan tarix dil açıb danışır. Burada yaşayan hay-lı-küylü günlər, insanlar, ömürlər... Elə bil qulağıma səs gəlir. İkiəsrlik yaşı olan məhəllənin insanlarının addım səsləri... Hər addım da bir tarix danışır. Bu addımlarda acılı-şirinli xatirələrə sığınan ömür yollarının izləri var. Gəzdikcə ayaqlarımla toxunduğum çınqılların qəlibləşən ikiəsrlik addım izləri, saymaqla bitməyən o illərin mənə yaşatdığı duyğuları dərindən hiss edirəm...***

Saysız-hesabsız insanlara qucaq açıb onları yaşadan, böyüdən, daşlaşan tarixin yaddaşlarına şahidlik edən Sarvanlar məhəlləsinin girişində, məhəllə haqqında araşdırdığım və öyrəndiklərimi diqqətinizə çatdırıram: Başlayaq, 1980-ci ildə "Mədəni-maarif" jurnalında dərc olunan, filologiya elmləri namizədi Əli Əliyevin "Naxçıvan şəhərində məhəllə adları" adlı məqaləsində Sarvanlar məhəlləsi haqqında yazılanlarla. Oxuyuruq: "Sarvanlar məhəlləsi ilk sakinlərinin – sarvanlar qəbiləsinin etnik adını daşıyır. Qərbi Azərbaycanın Zəngibasar bölgəsində Sarvanlar kəndi və Sarvanlar elinin adı ilə bağlıdır. Lap qədimdən dəvəçiliklə məşğul olduğundan onlara sarvanlar deyiblər. Naxçıvan şəhərindəki "Dəvə yatağı" adlı yer də bu fikri təsdiq edir. Naxçıvana basqın zamanı qənimətlərlə yanaşı, çoxlu dəvə karvanları da ələ keçirmişlər. Həmçinin "Kitabi-Dədə Qorqud" dastanında təsvir edilən oğuz ellərində qatar-qatar dəvələr ən yaxşı var-dövlət sayılırmış". Naxçıvan ensiklopediyasından isə öyrənirik ki, məhəllə şimaldan Sallaqxana, cənubdan Gomayıl məhəlləri ilə qonşu olub. Şəxsi təsərrüfat sahələrində tut, ərik, ceviz ağacları və nar kolları becərmişlər. Məhəllənin adı arxiv materiallarının 1831-ci ilə aid kameral siyahısında da vurğulanır ki, şəhər ta qədimdən 4 əsas hissəyə bölünür: Sarvanlar, Şahab, Əlixan, Qurdlar. Güman ki, adıçəkilən bu tayfalar daha çox dəvəçiliklə məşğul olduğu üçün sarvanlar adlandırılıb. XX əsrin arxiv məlumatları da bu qənaəti təsdiq edir.

Qədim izləri qoruyub saxlayan məhəllədə abad yollarla irəlilədikcə gördüyüm hər qapıdan gələn bir səs, bir avaz məni elə o illərə qonaq aparır. Bu qapıda neçə-neçə tanış hekayə, neçə-neçə tanış olmayan həyat tarixçəsinin səhnəcikləri qısa filmlər kimi canlanır gözlərim önündə. Səs-səsə verir bu məhəllədə. Araşdırma zamanı məlum olan faktlardan yola çıxaraq deyim ki, bir vaxtlar Müslüm və Qara bəy Fərzəlibəylilər, Mirzə İsmayılov, İsa Musayev (Azərbaycan Respublikasının Xalq artisti), Mircəfər Mirişli (Ramiz Mirişlinin atası), Yunus Salayev (akademik Eldar Salayevin atası), Kalbalı Musa, Səfər Rəcəbli (Naxçıvan MSSR Əməkdar artisti), Rəşid Məmmədov (Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi) kimi sakinlərin ev-eşikləri bu məhəllədə olub.

Sarvanlar məhəlləsinin adını çəkəndə isə böyükdən-kiçiyə hamı Kalba Musanı xatırlayır. Səbəbsiz deyil, bu məhəllənin ilk sakinlərindən biri olub. Xeyirxah, millətsevər biri kimi böyük hörmət qazanıb. Kərbəlayı Musanın (el arasında ona Kalba Musa deyərdilər) tikdirdiyi (hazırda Səməd Vurğun küçəsi 20-də yerləşir) evin önündə dayanmışam. Buranı sarvanlılar "taxta ev" adlandırırlar. Oğlu Həsən və nəvəsi Musa Musayevin xatirələrini Bağır Bağırovun "Çeşmə suyu duru olur" kitabında oxumuşdum. Xatirələrdə yer alan həmin ev haqqında öyrənirik ki, Musa Həsən oğlu Musayev də o evdə böyüyüb, boya-başa çatıb. Əvvəl sovxoz idarəsi kimi istifadə edilən evin tarixi haqqında dəqiq məlumat olmasa da, tikilmə tarixi, təqribən, 1880-90-cı illərə təsadüf edir. Həmin ev 1918-ci ildə erməni basqını zamanı düşmənlər tərəfindən yandırılıb. Sonra yenidən düzəldilərək yaşayış evi kimi bərpa olunub. Deyilənə görə, Kalba Musa bura gəldiyi vaxtlarda Yunus və Əkbər xanın torpaqlarından icarəyə sahə götürür. Naxçıvanın əməksevərlərini bir araya yığıb əkin-biçinə başlayır. Həm özü mal-dövlət sahibi olur, həm də əhalini dolandırır. Qardaşı Məşədi İsa ilə birgə xeyli iribuynuzlu və xırdabuynuzlu heyvan saxlayır. Bir çox tövlələr tikdirir. Maraqlısı da odur ki, bunu xeyriyyə məqsədilə edir. Kimsədən pul almır. Nəvəsi Musa Musayev qeyd edir ki, babam tövlədə malı saxlanılanlardan heç bir təmənna filan ummazmış. Əksinə, yemləmədə belə, babam ehtiyacı olanlara əl uzadar, üstəlik, onların ailələrinə taxıl, ağartı sarıdan da əl tutarmış. Əl tutmaq demişkən, Kalba Musanı öz dövrünün adamlarından fərqləndirən cəhətlərdən biri onun comərd bir adam olması idi. Kitabda 1905-1906, 1918-1920-ci illərin hadisələri, erməni-müsəlman davası, türklərin çətin anlarda köməyə gəlməsi barədə məlumatlar da var: "Xalqımızın qatı düşməni tayqulaq daşnak Andronikin qoşunları əhalini qılıncdan keçirir, uşaq və qocaları amansızcasına qırır, ev-eşikləri vəhşicəsinə yandırırdılar. Qayda-qanun olmadığından yerli əhali tamamilə köməksiz qalmışdı. Keçid dövrü ermənilərin əl-qolunu yaman açmışdı. Köməksiz və əliyalın əhalinin bircə yolu qalmışdı: Arazı o tərəfə keçmək, canlarını birtəhər erməni cəlladlarından xilas etmək". Məlumatlarda o da bildirilir ki, əhali o zaman canını qurtarıb İranın Qaraçux kəndinin yanında məskunlaşır. Acınacaqlısı da odur ki, həmin vaxt üzməyi bacarmayanlar Arazı keçə bilmirdi, bəziləri hətta suda boğulurdu da. Belə bir çətin zamanda daim millətini düşünən, xeyriyyəçi kimi tanınan – Kalba Musa camaatı yığaraq Arazı keçə bilməyənlərə kim kömək etsə, ona qızıl onluq verəcəyi vədini bildirir.



Kərbəlayı Musanın Sarvanlar məhəlləsindəki evi XIX əsrin sonu-XX əsrin əvvəlləri

Xalqı, milləti üçün çox işlər görən Kalba Musa ermənilərlə qırğın zamanı Sədərək tərəfdən yardıma gələn türkləri qarşılayarkən onlara bələd olur, özü də döyüşlərdə iştirak edir. Qəhrəmanlığı və mehribanlığı ilə hər kəsin rəğbətini qazanır. Məlumatlarda oxuyuruq ki, hətta ona türk hərbçiləri tərəfindən zabit forması və at da bağışlanır. Kəngərlilər nəslindən olan Kalbalı xan Naxçıvanski ilə birlikdə səngərlərdə vuruşması haqqında məlumatlar da az deyil.

Tarixi materiallardan məlumdur ki, o dövr üçün ən aktual məsələlərdən biri məhz susuzluq problemi olub. Vurğulanır ki, Naxçıvan suyu az olan yer olduğundan əhali çıxılmaz bir vəziyyətdə qalır. Min bir əzab-əziyyətlə becərdiyi bostan, əkin yayın qızmar günlərində külə dönür, hər il dözülməz dərəcədə qıtlıq yaranırdı. Belə bir vəziyyətdən əhalini ancaq kəhrizlər, bulaqlar xilas edə bilərdi. Məhz belə bir məqamda Kalba Musa, Kəngərlilərin gücündən istifadə edərək uzun götür-qoydan sonra 12 kilometr məsafədən, Şıxmahmud kəndinin yaxınlığındakı dağlardan su çəkdirmək qərarına gəlir. 1901-ci ildə tikilən Kalba Musa çeşməsinin tikintisi, nə az, nə çox, düz 9 ilə başa gəlir. Bəzi mənbələr deyir ki, tikintisində iki inək dərisi ağzına kimi dolu qızıl xərclənir. Nəvəsi Musa Musayevin çeşmənin tikilməsində iştirak edən Qurd Məhəmmədlə söhbətini yada salaq. Qurd Məhəmmədin dediklərindən: "Həmin çeşmə çoxlarının düşündüyü kimi, çox da ucuz başa gəlməyib. Lağımın hər qarışı üçün baban bizə bir qızıl onluq verirdi. Nə qədər diqqətli olsaq da, su çox az gəlirdi. Hamı ümidini itirir ki, iş nəticəsiz qaldı. Hətta Kalba Musa özü də 9 ildir, ümidlə gözlədiyi çeşmədən gözünü çəkir. Bir gecə səhərə yaxın şəhərə güclü sel-su səsi yayılır. Yuxudan oyanan durub çeşməyə yaxınlaşır. Bu səsi təsvir etsək, elə bil ki, yerin altında dəniz qaynayır. Güclü su fontanı əkin sahələrini də məhv edir, zamanla öz məcrasını tapıb bütün ərazinin gələcək su ehtiyatı olur". Həmin çeşmə ilə üz-üzə dayanıb baxıram. Min bir əzab-əziyyət bahasına başa gələn bu çeşmənin qazılmasına qədərki mərhələləri düşünürəm. Haqlı olaraq söz açdığım sarvanlı Kalba Musanı qəhrəman obrazında təsəvvür edirəm. Çünki o dövr üçün belə bir təşəbbüs ancaq xeyirxah, millətini düşünən vətəndaşın arzusu ola bilərdi. Bütün qazancını bu çeşmənin bərpasına xərcləyən Kalba Musanın zəhmətlə qurduğu var-dövləti oğlu Həsən qoruyub saxlaya bilmir. Hər şeyini əlindən alsalar da, sorğu-sual davam edir, hətta bu sorğudan, sanki mənəvi zövq alır, dəfələrlə israrla atasından qalan qızılların yerini soruşurlar. Bilə-bilə ki, axtarış zamanı tövlənin hasarı altından çıxan axırıncı Nikolay pulu ilə dolu sandıq da hamının gözü qarşısında oğlu Həsən tərəfindən neft tökülüb yandırılmışdı.



Kalba Musa çeşməsi



Sarvanlar məhəlləsi bu gün

O zaman Azərbaycanın rus imperiyası tərəfindən işğal olunmasından bir neçə il ötmüşdü. Başıpozuqluq, qarışıqlıq, dərəbəylik hökm sürməkdə idi. Yerli əhali zaman-zaman rusların süni yaratdığı "Əkinbiçindən faydalanın!" şüarına canla-başla xidmət edir və axırda da torpaqları əlindən alınırdı, onlar da öz doğma ev-eşiklərini qoyub gedirdilər.

Yenə arxiv materiallarına müraciət edirik. Kameral siyahıyla tanışlıqda məlum olur ki, 1924-cü ildə Sarvanlar məhəlləsində 212 ev qeydə alınıb. Bu rəqəm bir il sonra 194-ə enib. Vaxtilə az-çox güzəranı olanlara, imkanlılara indi şübhəli gözlə baxır, onlara inamsızlıq göstərirdilər. Elə bir vəziyyət yaranmışdı ki, varlı təbəqə öz əmlakını amansızcasına dağıdır, hər şeydən ehtiyatlanır, bir səksəkə içərisində yaşayırdı. Bu səksəkənin şahidi olan divarlara toxunub, etiraflara qulaq verirəm. Sanki danışan pıçıltılarda imdad çağırışları, çarəsizliklər, ümidsizliklər də qocalıb. Gümansızcasına yaşlı səslə nə vaxtsa öz dərdini bizə danışacağı günləri gözləyirmiş. Dinləyirəm... Gileyləri, hüznləri dinləyirəm. Bu hüznlər arasında belə, xainliyin qurbanlarından olan Mirzə İsmayılov və ailəsinin çox acınacaqlı həyatı yer alıb. Onun haqqında təəssüratları Mirzə İsmayılovun nəvəsi Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində şöbə müdiri vəzifəsində işləyən Zülfiyyə İsmayılovadan öyrənirəm: "Əkin-biçinlə, əsasən, pambıqçılıqla məşğul olduğu üçün babam Mirzə İsmayılov, nənəm Məhbubə Əsgərova, övladları Adil və İsmayıl İsmayılovlar 1930-cu ildən 1935-ci ilə qədər ailəliklə sürgünə göndərilir. Repressiyada yay-qış demədən çadırda ömür-gün sürən babamgili çox çətin illər gözləyir. Belə ki, nənəmin orada üç qız övladı dünyaya gəlir ki, onlardan biri ölür, babam da çətinliklərə dözə bilməyib ürək tutmasından dünyasını dəyişir. Nənəm qayınanasına məktub göndərib olanlardan xəbər verir. Qayınanası Xeyrənsə Əliyeva Stalinə məktub yazır, qeyd edir ki, onların heç bir təqsiri olmayıb, gəlini övladları ilə çıxılmaz vəziyyətdə çörəyə möhtac yaşayır, Stalinin tapşırığı ilə sonralar İsmayılovlara bəraət verilir. Akademik Eldar Salayevin atası Yunus Salayev yaxın qohum kimi Bakıya yola düşüb nənəmi övladları ilə birgə evlərinə gətirir".

Öz həcm, məkan quruluşu və mahiyyətinə görə Sarvanlar məhəlləsi haqqında az bilinənləri vurğulamaqda məqsəd odövrkü vəziyyət barədə məlumatları oxucuların nəzərinə çatdırmaq oldu. Çünki özü qədər qədim yaşayış məhəllələrinin bilinməyən tarixini öyrənmək və gələcək nəsillərə bu barədə məlumat vermək olduqca zəruridir. Məhz bu səbəbdən Sarvanlar məhəlləsi kimi digər tarixi yaşayış yerlərimizin də tədqiqat hədəfinə çevrilməsinə ehtiyac vardır. İnternet saytlarında Gürcüstanın Aşağı Kartli bölgəsinin (Borçalı) Marneuli ərazisində Qaçağan (Sarvan) adlı bir kəndin mövcudluğuna rast gəlirik. Tarixi mənbələr kəndin XII əsrdə Dəşti-Qıpçaq çölündən gəlmiş qıpçaq tayfaları tərəfindən salındığını təsdiq edir. Atabəylər dövrünə təsadüf etməyi, o kəndin adının "Sarvan" olmasının əsasları, bizim Sarvanlar məhəlləsi ilə əlaqəsinin olub-olmamasını öyrənmək isə tədqiqatçılarımızın işidir.

*Naxçıvanın hər daşı, hər qarışı köksündə milliliyimizi, ulu tariximizi yaşadır. Bu qədim diyarımızın hələ qatı açılmamış öyrəniləsi neçə-neçə şanlı tarix səhifəsi var. Milli dəyərlərimizə, tariximizə göstərilən dövlət qayğısı, yanarlı münasibət tariximizin neçə-neçə sirli qatlarını araşdırmağa, təbliğ etməyə rəvac verəcək. Bəhs etdiyimiz məhəllə haqqında da fərziyyə, rəvayət və duyumdan daha çox faktlara ehtiyac var. Arxiv materiallarını, istinad mənbələrini nəzərdə tuturam. Uzun müddətdir, topladığım bu faktları diqqətə çatdırdım. Hansının doğru olduğunu isə tarixçilərimiz zamanla öz tədqiqatları ilə təsdiqləyəcək. Təbii ki, istinadlar tarixə əsaslanmalıdır. Tarixə güvənib tarixin cavabını gözləmək lazımdır. Çünki o, layiqli cavabı verəcək zamanla.*

**Türkan HÜSEYNLİ**

## *"Nizami xəmsəsi"* layihəsinin açılış tədbiri keçirilib




***Naxçıvan şəhərindəki Gənclər Mərkəzində "Nizami xəmsəsi" layihəsinin açılış tədbiri olub.***

Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək bildirib ki, görkəmli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə Prezident cənab İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında 2021-ci il 5 yanvar tarixli Sərəncamı həm Nizami Gəncəvi yaradıcılığına, həm də Azərbaycan ədəbiyyatına dövlət səviyyəsində verilən ən yüksək qiymətdir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"na Nizami Gəncəvinin də əsərlərinin salınması bir daha onu göstərir ki, Azərbaycanın zaman-zaman dünyanın söz sənəti xəzinəsini nadir incilərlə zənginləşdirən böyük sənətkarları sırasında Nizami Gəncəvi yaradıcılığı möhtəşəmliyi, müdrikliyi və həyatiliyi ilə seçilir. Elə bu səbəbdəndir ki, yazdıqları əsrlər keçməsinə baxmayaraq, öz bədii dəyərini bu gün də qoruyub saxlayır.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən start verilən "Nizami xəmsəsi" layihəsi çərçivəsində müxtəlif səpkili tədbirlər keçiriləcək, layihə fevralın 20-dək davam edəcək.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev, Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, professor Əsgər Qədimov çıxış edərək Nizami Gəncəvi irsinin müxtəlif aspektlərinə nəzər salıb, onun lirik şeirləri, poemaları barədə geniş danışıblar. Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Fatma Bağırova şairin "Sənsiz" qəzəlini bədii qiraət edib.

**Güntac ŞAHMƏMMƏDLİ**




Turizm

# Mənalı istirahət və turizm mərkəzi AĞBULAQ

*Müasir insan həyatının mühüm tərkib hissəsi asudə vaxtdır. İş və ev qayğılarından sonra məhz asudə vaxtın səmərəli keçirilməsi isə turizm və rekreasiya kompleksinin əsas vəzifələrindən biridir. Sosial-mədəni infrastruktur kimi həyat keyfiyyətinə birbaşa təsir edən bu kompleksin zənginliyi isə ölkənin iqtisadi inkişaf səviyyəsindən və insanların mədəni istirahətə verdiyi önəmdən çox asılıdır.*



Son dövrlərin zərurəti kimi Naxçıvanda daxili turizmə xüsusilə diqqət ayrılması regionun rəngarəng turizm ehtiyatlarından daha səmərəli istifadəyə geniş imkanlar yaradıb. Tanışlıq, dini-ziyarət, müalicə, ekoturizm və kənd-yaşıl turizm növlərində xeyli potensial əldə edilmiş Naxçıvanda qış turizmi növlərinin də populyarlaşması səyahət həvəskarları olan yerli əhalinin və xarici turistlərin burada ilboyu mənalı asudə vaxtı səmərəli keçirmək imkanlarını artırır. Ağbulaq Xizək Mərkəzi, bu mənada, qış fəslində xizək idman növlərinə maraq göstərən və hər yaşdan olan insanlar üçün sərfəli qiymətə istirahət və əyləncə dolu zəngin təəssürat vəd edən ideal məkandır.

Naxçıvanda qış uzun sürməsə də, Şahbuz dağlarında noyabrın sonlarından marta qədər yağan qar bu yerlərin əsl sərvətinə çevrilir. Qalın qarın özü ilə gətirdiyi mülayim, həzin hava şəraiti həm qışın təravətini insanlara yaşadırır, həm torpağı doyuraraq gələn ilin bərəkətini gətirir, həm də xizək idmanı üçün unikal təbii şərait yaradır. Şahbuzda, Dərələyəz və Zəngəzur dağlarının qovuşduğu Ağbulaqda bunların hamısı vardır. Bu il isə Şahbuzda yağan qalın qarın sevincini doyunca yaşamaq üçün Ağbulaq Xizək Mərkəzinə üz tutanlar daha yaxşı istirahət edib, Naxçıvanın təbii gözəlliklərindən dərin zövq alırlar.

Ağbulağın yazı qədər qışı da belə gözəlliklərlə doludur. Ötən illərdə Naxçıvana gəlmiş ölkədaxili və əcnəbi turistlərlə Şahbuz dağlarına qalxarkən dəfələrlə onların Ağbulağın xalı kimi rəngbərəng sinəsinə heyranlıqla tamaşa etdiklərinin şahidi olmuşuq. Şübhəsiz, qışın bu gözəl çağında ağappaq örpəyə bürünmüş təbiətin bu dilbər guşəsinin cazibəsi turistləri daha çox çəkir. Xizək turizmi kimi elit kateqoriyalı turizm növünün cazibəsi ilə yanaşı, Ağbulaqda yaradılmış hər cür şərait də burada bircə gün olanlarda geniş təəssürat yaradır.

Turizm təəssüratı üçün hazır təbii şəraitlə paralel olaraq yaradılmış şərait də mühüm tələblərdəndir. Ağbulaq İstirahət Mərkəzi malik olduğu zəruri infrastruktura görə ilin hər fəslində burada asudə vaxt keçirmək istəyənlər üçün belə şərait vəd edir. Naxçıvan şəhərindən cəmisi birsaatlıq rahat yol, Araza qədər geniş panoramlı mənzərə, təmiz, günəşli hava və Avropa sayağı abad kənd buranın ilk cazibə elementlərindəndir. Mərkəzin özü isə müasir kamp məkanı üçün tələb olunan hər cür rahatlığa malikdir. Burada bir gün keçirmək, yaxud bir neçə gün qalmaq istəyən tək, ikinəfərlik, yaxud ailəli turistlər üçün hər cür seçim vardır. Mərkəzdə ümumi tutumu 76 nəfər olan 38 otaq fəaliyyət göstərir. Bütün otaqlar yüksək komfortlu otel standartlarına uyğun olan şəraitlə təmin edilib. Ağbulağa gəlmiş turistlər dəniz səviyyəsindən 2 min metr yüksəklikdə qazandıqları təəssüratları 4G sürətli internetlə dostları ilə paylaşa bilir. Xizəksürmə təcrübəsindən başqa turistlərə burada zəngin qastronomiya servisləri də təklif olunur. Kənd üsulu ilə hazırlanmış ləziz mətbəx nümunələrinin dad-tamı mərkəzdə asudə vaxt keçirənlərin uzun müddət yaddaşında qalacaqdır. Tamamən təbii yollarla istehsal olunan ərzaq məhsullarından dadmaq fürsəti indi nadir hallarda olur. Ağbulağa istirahətə gəlmiş turistlər əyləncə ilə yanaşı, bu fürsəti də qazanırlar.

Ağbulaqda yaradılmış xizəksürmə infrastrukturu ən müasir komfort, erqonomika və təhlükəsizlik standartlarına cavab verir. Estetik görüntüsü ilə də rekreasiya dəyəri çox yüksək olan Ağbulağın xizək enişləri zəruri kanat yolla təmin edilib. Qış aylarında burada həmişə qar olsa da, xizəksürmə həvəskarlarına davamlı xidmətlər göstərə bilmək üçün süni qaryaratma sistemləri də quraşdırılıb. Burada xizəksürmə ilə ilk dəfə tanış olanlar xizəksürmə üzrə mütəxəssislərdən məsləhət və kömək ala bilirlər. Xüsusi geyim və xizəksürmə avadanlıqları isə həvəskarların bol təəssüratla sağ-salamat evlərinə qayıtmasında əsas texniki şərtlərdəndir. Buna görə də hər kəs çalışır ki, Ağbulağa bir gələn, bir daha gəlsin.





Ağbulaq həm yay, həm də qış tətilində tələbə-gənclərin sevimli məkanıdır. Burada aktiv yaşda olan bu insanlar üçün həm aktiv istirahət, həm də təlim proqramları həyata keçirilir. Təbiətlə daha çox ünsiyyətdə olmaq, müasir texnologiyanın yaratdığı stresdən uzaqlaşmaq və həm də xüsusi idman növləri üzrə təhsil almaq baxımından bu mərkəzin turizm-rekreasiya dəyəri yüksəkdir. Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman, Məşqçilik ixtisasları tələbələrinin Ağbulaq Xizək Mərkəzində təlim keçməsinin xizəkçilik idman növü üzrə peşəkar kadrların hazırlanmasında mühüm əhəmiyyəti vardır.

**Əli CABBAROV**

## Qarnizon xəbərləri



Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Türkiyə Respublikasının Qars şəhərində keçirilmiş “Qış təlimi – 2021”də ölkəmizi layiqincə təmsil edərək xidmət yerlərinə qayıdıblar.

Fevralın 11-də “Qış təlimi – 2021”in Yüksək Səviyyəli Müşahidəçi Günü və döyüş atışlı mərhələsi keçirilib. Təlimin döyüş atışlı mərhələsində hərbi daşıma və hücum helikopterlərinin dəstəyi ilə desant qrupları düşmən hədəflərinin olduğu nöqtəyə irəliləyiblər. ATAK hücum helikopterləri xüsusi təyinatlıların təhlükəsizliyini təmin edib. PUA-ların dəstəklədiyi artilleriyaçılar təyin olunan düşmən mövqelərini sıradan çıxarıblar. Zirehli texnikaların ekipajları tankların və piyadaların döyüş maşınlarının tətbiqi ilə müxtəlif manevrlər və atışlar həyata keçiriblər. Aviazərbələrlə düşmən tanklarını imitasiya edən hədəflər məhv edilib. Keçidaçma sistemi vasitəsilə minalardan təmizlənən sahədə irəliləyən qoşunlarımızın maneəsiz hərəkəti mühəndis bölmələri tərəfindən təmin edilib. Snayper cütlüklərinin hədəfləri tam dəqiqliyi ilə məhv etdiyi təlimdə helikopterlər topları təlim sahəsinə gətiriblər. Azərbaycan və Türkiyə respublikalarının Dövlət bayraqlarının açıldığı paraşüt atlayışı ilə təlim başa çatıb.

“Qış təlimi – 2021”ə hər iki qardaş ölkənin mətbuatı ilə yanaşı, xarici kütləvi informasiya vasitələri də böyük maraq göstərib. Türkiyə televiziyalarının hazırladıqları reportajlarda Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının peşəkarlığından danışılıb, təlim iştirakçılarından müsahibələr alınıb.

Qış təlimində iştirak etmiş hərbi qulluqçularımız bu günlərdə xidmət yerlərinə qayıdıblar. Türkiyə Respublikasından qayıdan şəxsi heyət hərbi hissələrdə təntənəli mərasimlə qarşılanıb.

* * *

***Əlahiddə Ümumqoşun Ordunun Hərbi Hava Qüvvələrində taktiki-xüsusi təlim keçirilib. Təlimə ordu aviasiyası və hava hücumundan müdafiə birləşmə və hissələri cəlb edilib.***



Uçuşlar zamanı hücum təyyarələri, atəş-dəstək və nəqliyyat-döyüş helikopterləri ilə yer hədəflərinə aviazərbələr praktik uçuşla təqlid edilib, hava hücumundan müdafiə vasitələrinin təsirinin dəf olunması üçün ən aşağı hündürlükdə mürəkkəb pilotoji manevrlər yerinə yetirilib.

Hava hücumundan müdafiə birləşmə və hissələri şərti hava düşmənini təqlid edən ordu aviasiyasının uçuşlarının aşkarlanması, izlənməsi və məhv edilməsi tapşırıqlarını məşq ediblər.

Taktiki-xüsusi təlimdə qarşılıqlı fəaliyyətin uzlaşmasına nail olunub.

* * *

***Naxçıvan Qarnizonu Qoşunlarında ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinləri ilə təlim-metodik toplantı keçirilib.***

Toplantı zamanı əsas diqqət ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinlərinin tabelikdə olanların fərdi-psixoloji xüsusiyyətlərini öyrənmə vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

Müxtəlif qurumların nümayəndələrinin də iştirak etdiyi nəzəri dərslərdə hüquq hazırlığından “Bölmələrdə cinayət hadisələrinin baş verməsinin qarşısının alınması”, mənəvi-psixoloji hazırlıqdan “Milli-mənəvi və dini dəyərlərin yad təsirlərdən qorunması”, “Mədəniyyət müəssisələri ilə qarşılıqlı əlaqədə mədəni-kütləvi tədbirlərin keçirilməsi”, “Hərbi kollektivi idarəetmə psixologiyası”, informasiya təhlükəsizliyindən “Müasir müharibələrdə informasiya qarşıdurması”, eləcə də digər mövzularda mühazirələr oxunub.

3 günlük toplantının sonuncu günündə 44 günlük Vətən müharibəsi zamanı kütləvi informasiya vasitələrinin və sosial şəbəkələrin fəaliyyətindən, düşmənin ifşa edilmiş dezinformasiyalarının təhlilindən bəhs edən sənədli filmlər nümayiş etdirilib.

**Nəriman NƏCƏFOV**

## “C” kateqoriyalı məşqçi kursunun 2-ci modulu start götürüb

Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirələrdə və “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nda bu sahənin inkişafı ilə əlaqədar qarşıya konkret məqsədlər qoyulub. Dövlət proqramına uyğun olaraq muxtar respublikaya təcrübəli məşqçilərin dəvət edilməsi, məşqçilərə təlimlərin, idmançılara nümunəvi dərslərin təşkili Gənclər və İdman Nazirliyi ilə aidiyyəti qurumların diqqət mərkəzindədir. Bu günlərdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə “C” kateqoriyalı məşqçilik kursunun keçirilməsinə start verilməsi bunun bariz nümunəsidir. Şərur Olimpiya İdman Kompleksində ilk dəfə təşkil olunan kursun ikinci moduluna başlanılıb.



AFFA-nın texniki direktoru Cahangir Həsənzadə, təlimatçılardan İlkin Hüseynov və İlham Əzizzadənin iştirakı ilə təşkil olunan kursda muxtar respublikanın müxtəlif bölgələrindən 15 məşqçi iştirak edir.

Kompleksin mehmanxanasında məskunlaşan məşqçilər gün ərzində 2 dəfə nəzəri və praktik məşğələlərdə iştirak edirlər. Ümumiyyətlə, kurs 3 moduldan ibarətdir. İkinci modulda iştirakçılar özləri sərbəst şəkildə aşağı yaş qrupları – 10-12 yaşlılarla məşq keçməyə çalışırlar. Bu məşqlərdə məşqçilər də onlara hər hansı bir məsələdə köməklik göstərirlər. Kursun bu moduluna həftəsonu yekun vurulacaq.

Qeyd edək ki, kursun son modulunda iştirakçılardan – gənc məşqçilərdən praktik, şifahi və yazılı imtahan götürüləcək. Yekunda imtahanda uğur qazanan iştirakçılar “C” kateqoriyası alacaqlar. Son modul 1-5 mart tarixləri arasında təşkil olunacaq.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Şərur rayonu, Yengicə kəndində yaşamış Məhərrəmov Şahin Abbas oğlunun adına olan JN-632A inventar nömrəli, 10207018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov Rahib Rafiq oğlunun adına olan SQ-0023660 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 144